AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

FUNKSİONAL-KOQNİTİV PARADİQMADA TRANSPOZİSİYA

İxtisas: 5704.01 – "Dil nəzəriyyəsi"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Kəmalə İzzət qızı Məlikli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Umumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
Aytən Məhəmməd qızı Bayramova

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
Leyla Musa qızı Xanbutayeva

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Sevinc Səlim qızı Məmmədzadə

filologiya elmləri üzrə fəlsəfə doktoru
Ləman Məhərrəm qızı Qasımlı

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
Azad Yəhya oğlu Məmmədov

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri doktoru, dosent
Aysel İlqar qızı Məmmədbəyli

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
Fərman Qusan oğlu Zeynalov

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Müasir dilçilik elminin indiki inkişaf mərhələsində dilin öyrənilməsi təkcə struktur cəhətdən deyil, həm də funksional və koqnitiv aspektlərdən araşdırılma tələb edir. Bu isə dilin yalnız formal strukturunu deyil, həm də insanın koqnitiv fəaliyyəti, təfəkkür prosesi və kommunikasiya məqsədləri ilə qarşılıqlı əlaqədə öyrənilməsi zərurətindən doğur. XX əsrin sonlarından etibarən dünya dilçiliyində dil hadisələrinin funksional-koqnitiv paradiqma çərçivəsində öyrənilməsi dilin yeni elmi şərhini formalaşdırmışdır. Bu paradiqma dilin yalnız struktur-sistem kimi deyil, həm də insanın şüuru və koqnitiv fəaliyyətinin məhsulu kimi dəyərləndirilməsinə, onun kommunikativ-funksional təbiətinin ön plana çəkilməsinə səbəb olmuşdur. Funksional-koqnitiv yanaşma ümumilikdə dil vahidlərinin danışıqdakı funksiyasını, yəni məna, məqsəd və kontekstə görə çevik dəyişmə imkanlarını izah etməyə yönəlmişdir. Bu baxımdan transpozisiya hadisəsi – yəni dil vahidlərinin bir qrammatik və ya semantik kateqoriyadan digərinə keçidi – antroposentrik yanaşmada əsas tədqiqat istiqamətlərindən birinə çevrilmişdir. Transpozisiya fenomeni dil sisteminin dinamikliyini, onun semantik və funksional çevikliyini əks etdirir.

Dilin statik sistem deyil, dinamik struktur kimi anlaşılması da tədqiqatın mövzusunun aktuallığını şərtləndirən amillərdən biridir. Dilin canlı, dəyişkən təbiətini araşdırmaq üçün onun keçid (transpozisiya) mexanizmlərini öyrənmək xüsusi əhəmiyyət daşıyır. Məhz bu səbəbdən müasir dövrdə funksional-koqnitiv paradiqma dilin struktur vahidlərinin qarşılıqlı semantik əlaqələrini, onların koqnitiv və kommunikasiya prosesindəki dəyişmə imkanlarını araşdırmasında universal metodoloji çərçivə sayılır.

"Funksional transpozisiya" anlayışının formalaşdırılması Cenevrə dilçilik məktəbinin nümayəndəsi Ş.Balliyə[1] məxsusdur. Sonralar O.Yespersen[2] qrammatik kateqoriyalar arasındakı funksional

[1] Балли, Ш. Общая лингвистика и вопросы французского языка / Ш.Балли. – М.: Издательство иностранной литературы, – 1955. – 416 с.

[2] Есперсен, О. Философия грамматики / О.Есперсен. – М.: Эдиториал УРСС, – 2002. – 404 с.

keçid məsələsini qeyd etmiş, A.Seşe, L.Tenyer, J.Dyubua[3] isə söz və cümlə vahidlərinin forması ilə funksional istifadəsi arasındakı münasibəti öyrənərək transpozisiya tipli keçidlərin struktur əsaslarını sistemləşdirmişlər. H.Marçand isə erkən morfoloji tədqiqatları davam etdirərək qrammatik kateqoriyalar arasındakı keçid mexanizmlərini sistemli şəkildə təhlil etmişdir[4]. Söz formalarının keçidini dilin daxili morfoloji sistemi çərçivəsində baş verən hadisə kimi şərh edən H.Marçandın klassik yanaşmasını İ.Plaq müasir morfoloji səviyyədə genişləndirmişdir[5]. O, kateqoriyalar arasındakı keçidin həm formal qrammatik strukturlara, həm də mənaya görə olduğunu göstərmişdir ki, bu da transpozisiya tipli proseslərin formal aspektlərini anlamağa imkan yaradır. Rus dilçiliyində isə transpozisiya hadisəsi qrammatik formaların semantik çevrilməsi ilə bağlı tədqiqatlarda yer almışdır. Məsələn, A.V.Bondarko feil formalarının zaman kateqoriyalarında baş verən semantik yerdəyişmələri "transpozisiya" adlandırmışdır[6]. V.Q.Qak isə bu anlayışı genişləndirərək transpozisiyanı dilin morfoloji, leksik və sintaktik səviyyələrində baş verən sistemli keçid prosesi kimi şərhinə nail olmuşdur[7].

Azərbaycan dilçiliyində "transpozisiya" termin kimi nisbətən yeni olsa da, onun mahiyyəti və tətbiq sahələri uzun illərdir müxtəlif adlar altında öyrənilmişdir. Məsələn, K.M.Abdullayev Azərbaycan

---

[3] Сеше, А. Очерк логической структуры предложения / А.Сеше. – М.: УРСС, – 2003. – 222 с.; Теньер, Л. Основы структурного синтаксиса / Л.Теньер. – М.: Прогресс, – 1988. – 656 с.; Dubois, J. Grammaire structurale du français: nom et pronom. – Paris: Librairie Larousse, – 1969. – 187 p.

[4] Marchand, H. Studies in Syntax and Word-Formation. – München: Wilhelm Fink Verlag, – 1974. – 440 p.

[5] Plag, I. Word-formation in English. – Cambridge: Cambridge University Press, – 2003. – 240 p.

[6] Бондарко, А.В. К вопросу о «транспозиции» (Употребление прошедшего времени глагола в современном русском языке для обозначения абстрактного настоящего) / А.В.Бондарко. – Учёные записки Ленинградского государственного педагогического института им. А.И.Герцена, – т. 248. – 1963. – с.51-60.

[7] Гак, В.Г. Теоретическая грамматика французского языка. Синтаксис / В.Г.Гак. – М.: Высшая школа, – 1986. – 220 с.; Гак, В.Г. Транспозиция / В.Г.Гак //Лингвистический энциклопедический словарь / гл. ред. В.Н.Ярцева. – М.: Советская энциклопедия, – 1990. – 688 с.

dili sintaksisinin nəzəri problemlərini araşdırarkən sintaktik vahidlərin bir-birinə keçid imkanlarını, yəni struktur-funksional çevrilməni dilin daxili qanunauyğunluğu kimi izah edir[8]. Ə.M.Cavadov tədqiqatında sintaktik vahidlərin ardıcıllığı və çevikliyini və bu mexanizmin danışıqda funksional çevrilmənin əsasını təşkil etdiyini göstərmişdir[9]. Funksional-koqnitiv paradiqmanın metodoloji çərçivəyə çevrilməsi isə dilin yalnız formal deyil, həm də mənəvi-koqnitiv təbiətinin öyrənilməsi ilə bağlıdır. F.Y.Veysəlliyə görə, *"dil vahidlərinin mənası yalnız leksik və ya qrammatik kateqoriyalarla məhdudlaşmır, onlar insan şüurunda formalaşan konseptual strukturların daşıyıcısıdır"*[10]. Bu baxımdan transpozisiya həm formal, həm də koqnitiv-kulturoloji hadisədir və o, dilin struktur səviyyələrində baş verən keçidləri əks etdirməklə yanaşı, insanın təfəkkür modelindəki çeviklik və yaradıcılığı da göstərir. Bu faktlar transpozisiyanın ayrı-ayrı dillərə xas lokal hadisə deyil, dil sisteminin ümumi qanunauyğunluqlarını əks etdirən proses olduğundan xəbər verir.

Koqnitiv yanaşmada transpozisiya dilin konseptual sahəsində müxtəlif məna çalarlarının yaranmasına xidmət edir. Məsələn, G.E.Buic morfoloji səviyyədə transpozisiyanı *"dil sisteminin qənaətli və məhsuldar xüsusiyyəti"*[11] adlandıraraq onu derivasiya və fleksiya arasında qərarlaşan keçid mexanizmi, A.Karsteyrs MkKarti isə transpozisiyanı *"dilin öz daxilində yeni söz formaları və sintaktik strukturların yaranmasında əsas yaradıcılıq prinsipi"* kimi şərh edir[12].

Müasir dilçilikdə transpozisiya anlayışı morfoloji və sintaktik səviyyələrdə geniş tətbiq olunur. Morfoloji transpozisiya daha çox konversiya (yəni şəkilçisiz keçid) və substantivləşmə formalarında, sintaktik transpozisiya isə cümlə tipləri arasında keçidləri, yəni bir

[8] Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M.Abdullayev. – Bakı: MTM-İnnovation, – 2016. – s.57.

[9] Cavadov, Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası / Ə.M.Cavadov. – Bakı: Elm, – 1977. – s. 41.

[10] Veysəlli, F.Y. Dilçiliyə giriş / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2017. – s.119.

[11] Booij, G.E. The Grammar of Words. An Introduction to Linguistic Morphology. – New York: Oxford Univ. Press Inc., – 2005. – p.68.

[12] Carstairs-McCarthy, A. An Introduction to English Morphology: Words and Their Structure. – Edinburgh: Edinburgh University Press, – 2002. – p.43.

strukturun başqa funksional məqsədlə işlədilməsində təzahür edir. R.Kverk və S.Qrinbaum bu prosesi *"cümlə tipinin məna funksiyasının dəyişməsi"* adlandırır[13].

Azərbaycan dilçiliyində bu istiqamətdəki tədqiqatlar, əsasən, funksional sintaksis və mətn nəzəriyyəsi ilə bağlıdır. Ə.Ə.Abdullayev transpozisiyanın mətn daxilində aktual üzvlənmə ilə əlaqəsini qeyd etmiş[14], L.M.Xanbutayeva isə danışıq aktı nəzəriyyəsində sintaktik vahidlərin funksional çevrilməsini araşdırmış və bunun danışıq aktındakı adresantın kommunikativ niyyətinə uyğun dəyişdiyini göstərmişdir[15]. Beləliklə, transpozisiya hadisəsinin tədqiqi dilin sistem və funksiya münasibətlərini aydınlaşdırmaqla yanaşı, onun koqnitiv yönümünü də üzə çıxarır. Müasir dövrdə bu anlayış yalnız formal çevrilmə kimi deyil, həm də koqnitiv və semantik uyğunlaşma prosesi kimi qiymətləndirilir. Bu isə nəzəri və praktik baxımdan aktualdır, çünki dilin öyrənilməsi yalnız struktur sistemlərin deyil, həm də koqnitiv modellərinin tədqiqini əhatə edir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyektini funksional-koqnitiv paradiqma çərçivəsində dil sistemində baş verən transpozisiya hadisəsi və onun reallaşdığı dil strukturları təşkil edir. Bu hadisə dilin struktur və semantik səviyyələrində – morfoloji, sintaktik, leksik və qrammatik sistemlərdə baş verən çevrilmələri, yəni bir vahidin digər kateqoriyanın funksiyasını daşıması prosesini əhatə edir. *Tədqiqatın predmetini* funksional-koqnitiv paradiqmanın nəzəri prinsipləri əsasında Azərbaycan, ingilis, rus, türk, alman, fransız, italyan və latın dillərində morfoloji və sintaktik transpozisiya hallarının müqayisəli-konfrontativ təhlilindən əldə edilən nəticələri ümumiləşdirərək sistemləşdirilməsi təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi funksional-koqnitiv paradiqma baxımından transpozisiya hadisəsinin dil sistemindəki rolu, onun morfoloji və sintaktik səviyyələrdə təzahür formaları, həmçinin bu hadisənin koqnitiv proseslərlə

[13] Quirk, R. A University Grammar of English / R.Quirk, S.Geenbaum. – London: Longman, – 1987. – p.112.

[14] Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev. – Bakı: Zərdabi LTD, – 2011. – s.83.

[15] Xanbutayeva, L.M. Danışıq aktı nəzəriyyəsində sintaktik vahidlərin yeri / L.M.Xanbutayeva. – Bakı: Elm və Təhsil, – 2018. – s.64.

qarşılıqlı əlaqəsini aşkara çıxarmaqdan ibarətdir. Tədqiqat işinin məqsədi dilin yalnız struktur komponentlərinin deyil, həm də onun semantik, funksional və konseptual təbiətinin öyrənilməsini zəruri edir. Bu səbəbdən diqqət dil vahidlərinin semantik çevikliyi və funksional uyğunluğunu izah edən mexanizmləri üzə çıxarmağa yönəlmişdir. Transpozisiyanın dilin dinamik sistemində məna, funksiya və kateqoriyanın dəyişmə prosesini koqnitiv model səviyyəsində izah etmək də tədqiqat işinin məqsədinə daxildir.

Bu məqsədə nail olmaq üçün işdə aşağıdakı ***vəzifələr*** yerinə yetirilmişdir:

– transpozisiya anlayışının nəzəri əsaslarını müəyyənləşdirmək, onun təşəkkül və formalaşma tarixini, terminoloji və konseptual məzmununu klassik və müasir nəzəri dilçilik kontekstində şərh etmək;

– morfoloji transpozisiya hadisəsini araşdırmaq: affiksləşmə, konversiya, substantivləşmə və digər formal mexanizmlər vasitəsilə baş verən keçidləri və onların funksional mahiyyətini izah etmək;

– sintaktik transpozisiyanın funksional təbiətini, cümlə tipləri və kommunikativ strukturlar arasındakı keçid formalarını təhlil etmək;

– transpozisiyanın koqnitiv səviyyədə reallaşma mexanizmlərini araşdırmaq, dil vahidlərinin konseptual məzmununda baş verən keçidləri, kateqoriyalararası əlaqələri və semantik istiqamət dəyişmələrini təhlil etmək;

– Azərbaycan, ingilis və rus dillərində transpozisiya hadisələrinin ümumi və fərdi xüsusiyyətlərini müəyyən edərək onun universal və milli dil xüsusiyyətlərini konfrontativ şəkildə təhlil etmək;

– funksional-koqnitiv paradiqma əsasında transpozisiyanın ümumi təsnif modelini işləyib hazırlamaq və bu modeli Azərbaycan dilinin materiallarına tətbiq etmək və alınan nəticələri sistemləşdirmək;

– nəticələr əsasında dil sisteminin çevikliyini, funksional-semantik əlaqələrinin inkişaf qanunauyğunluqlarını və transpozisiyanın dilin koqnitiv əsaslı strukturunda yerini elmi cəhətdən əsaslandırmaq.

Tədqiqat metodları. Tədqiqatın yerinə yetirilməsində aşağıdakı metodlardan istifadə edilmişdir: nəzəri-ümumiləşdirmə və sinxron-diaxron təsvir, korpus əsaslı kontekst-distribusiya təhlili, müqayisəli-tipoloji yanaşma, komponent və freym-ssenari təhlili, praqmatik-diskurs təhlili, statistik tezlik müşahidələri.

Müdafiəyə çıxarılan əsas müddəalar:

– transpozisiya funksional-koqnitiv paradiqmada ikili mexanizmə əsaslanır: tam/morfoloji (affikslәşmə və konversiya vasitəsilə kateqoriya dəyişikliyi) və natamam/sintaktik (forma sabit (konstant) qalıb funksiyanın dəyişməsi) transpozisiya;

– nəzəri dilçilikdə morfoloji və sintaktik transpozisiyanı fərqləndirən dördlü meyar mövcuddur: (1) morfoloji nişanlama, (2) sintaktik paylanma, (3) leksik-semantik invariant, (4) praqmatik-kommunikativ niyyət (intensiya);

– təbii dilin (Azərbaycan, rus, ingilis və s.) materialı əsasında affikslәşmə və konversiya üzrə substantivləşmə, adektivləşmə, verbləşmə, adverballaşma mikrotipləri üçün test-çərçivələr mövcuddur;

– sintaktik transpozisiya çərçivəsində sual cümləsi → nəqli (inkar/ qiymətləndirmə) məzmun, nəqli → əmr/nida kimi "effektiv aspekt" funksiyalarının kontekst-praqmatik şərtləri modelləşdirilir;

– transpozisiya – konversiya – transformasiya anlayışları arasında sərhədlər mövcuddur, yəni hər bir konversiya transpozisiyadır, lakin hər bir transpozisiya konversiya və ya transformasiya deyildir;

– transpozisiya dil strukturlarının funksional omonimliyini izah edən əsas mexanizmdir, başqa sözlə, hər bir dil sistemində leksik və funksional omonimlik üçün diaqnostik meyarlar mövcuddur və omonimliyə "keçid"lə sistemli şəkildə əlaqədədir.

Tədqiqatın elmi yeniliyi transpozisiya hadisəsinin funksional-koqnitiv paradiqma çərçivəsində Azərbaycan dilçiliyində kompleks şəkildə – morfoloji və sintaktik səviyyələrdə öyrənilməsindən ibarətdir. İşdə transpozisiyanın təkcə struktur çevrilmə kimi deyil, koqnitiv proseslər və semantik dəyişmələrin nəticəsi kimi təzahürü nəzəri cəhətdən əsaslandırılmış, transpozisiyanın funksional-semantik mexanizmləri, dil daşıyıcısının şüurundakı koqnitiv modelləri və kateqorial keçidlərin tipoloji təsnifi müəyyən edilmişdir. Bu cür

yanaşma Azərbaycan dilinin funksional və koqnitiv sistemini yeni aspektdən izah etməyə imkan verir və dilin semantik dinamikliyinə dair mövcud təsəvvürlərin sərhədlərini xeyli genişləndirir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti Azərbaycan dilçiliyində dil hadisələrinin funksional-koqnitiv paradiqma çərçivəsində transpozisiya anlayışının nəzəri əsaslarını sistemləşdirmək və onun dilin semantik, morfoloji və sintaktik səviyyələrində reallaşma mexanizmlərini müəyyənləşdirməkdən ibarətdir. İşdə irəli sürülən nəzəri müddəalar dilin funksional-semantik bütövlüyü və hərəkət mexanizmlərinin koqnitiv müstəvidə izahına imkan yaradır. Bu yanaşma Azərbaycan, eləcə də ümumi dilçilik baxımından funksional və koqnitiv istiqamətlərin inkişafına mühüm töhfə verə bilər.

Tədqiqatın praktiki əhəmiyyəti işdə müəyyənləşdirilən nəzəri prinsiplər və təsnifat modellərinin ali təhsil müəssisələrində "Ümumi dilçilik", "Müasir Azərbaycan dili", "Koqnitiv dilçilik", "Nitq mədəniyyəti" kimi fənlərin tədrisində, həmçinin qrammatika, sintaksis və mətn təhlili üzrə praktiki dərslərdə istifadə edilə bilməsindən ibarətdir. İşin nəticələri dilin funksional tədrisinə, tərcümə proseslərinin keyfiyyətinin artırılmasına, eləcə də metodoloji tədris materiallarının hazırlanmasına töhfə verə bilər. Tədqiqat nəticələri dilin semantik çevikliyinin izahı və kommunikativ strukturun öyrənilməsi baxımından elmi-nəzəri və tətbiqi tədqiqatlara yeni istiqamət qazandıra bilər.

Aprobasiyası və tətbiqi. Tədqiqatın əsas müddəaları və nəticələri Azərbaycanda və xaricdə elmi jurnallarda nəşr edilən məqalələrdə öz əksini tapmışdır. Mövzu üzrə 5 elmi məruzə və tezislər respublika və xarici ölkələrdə keçirilmiş beynəlxalq və yerli elmi konfranslarda təqdim edilmiş, həmin məruzələr konfrans materialları toplusunda dərc olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş hissəsi 7 səhifə (12197 işarə), I fəsil 38 səhifə (73096 işarə), II

fəsil 42 səhifə (78658 işarə), III fəsil 52 səhifə (92954 işarə), Nəticə hissəsi 3 səhifə (4780 işarə) olmaqla, dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 261685 işarədir.

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın ***Giriş*** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqatın metodları və müdafiəyə çıxarılmış müddəaları dəqiqləşdirilir, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, yerinə yetirlidiyi təşkilatın adı və strukturu barədə məlumat verilir.

İşin **"Transpozisiya hadisəsinin məzmun və mahiyyəti"** adlı I fəsli dörd paraqrafdan ibarətdir. Bu fəslin ***"Dilçilikdə transpozisiya hadisəsinə dair nəzəri fikirlər və terminoloji ziddiyyətlər"*** adlı ilk paraqrafında dilçilikdə fərqli müzakirələrin obyekti olmuş transpozisiya hadisəsinə ümumi nəzər salınır. Müasir dilçilikdə lüğəvi mənası yerdəyişmə, köçürülmə və çevrilmə olan "*transpozisiya"* terminindən geniş istifadə edilir. "Transpozisiya" termini altında bir nitq hissəsinə aid sözün başqa nitq hissəsinə keçidi və ya hər hansı bir dil formasının fərqli funksiyada istifadəsi nəzərdə tutulur. Başqa sözlə, transpozisiya bir dil formasının paradiqmatik cərgədə ona əks olan digər dil forması funksiyasında işlənməsidir. P. ten Hakken transpozisiyanın tərifini verərkən üç əsas məqama diqqət yetirir: transpozisiya zamanı sintaktik kateqoriyanın dəyişməsi, semantik kateqoriyanın sabit qalması və heç bir semantik xüsusiyyətin dəyişməməsi[16].

Dil dildaxili proseslər və başqa dillərlə təmasın nəticəsində zənginləşir, təkmilləşir, sabit normalara malik ədəbi dil statusu qazanır. İnkişaf prosesində dilin daxili strukturu, onun lüğət tərkibi, qrammatik kateqoriya və normaları təkmilləşir və dildə öz dəqiq yerini tapır. Bu prosesdə dilin kateqoriya və vahidlərində keçid hadisəsinə də rast gəlinir, çünki hər bir dil söz yaradıcılığının müxtəlif yolları ilə yeni sözlər qazanır və bir nitq hissəsindən başqa

[16] Ten Hacken, P. Transposition and Limits of Word Formation. In book Semantics of Complex Word (L.Bauer, L.Körtvelyessy, P.Stekauer eds.). – Switzerland: Springer Cham, – 2015. – p.196.

nitq hissəsinə keçid sayəsində zənginləşir.

Nitq hissələrinin keçidi anlayışı dilin morfoloji və leksik səviyyələrinin kəsişməsində götürülə bilər. Söhbət bir nitq hissəsindən digərinə keçiddən gedirsə bu, morfologiya, bir dil vahidindən digərinə keçid nəzərdə tutulursa, bu, leksikologiya ilə əlaqəlidir.

Dil işarəsinin bir kateqoriyadan digərinə çevrilməsi imkanlarının tədqiqi Avropa dilçilərindən başlayır. Məsələn, Ş.Balli "funksional transpozisiya" anlayışını formalaşdırmış və buna görə də "transpozisiya" terminin dilçiliyə gətirilməsi onun adı ilə əlaqələndirilmişdir[17]. Ş.Balliyə görə, transpozisiya zamanı başqa kateqoriyaya keçid olsa da, məna dəyişməz qalır. Bu dil hadisəsinin mahiyyətini şərh edən Ş.Balli funksional transpozisiyanın üç hissədən ibarət olduğunu göstərir:

1) transpozisiya edilməli olan hissə;
2) transpozisiya və ya yeni bir kateqoriyanı ifadə edən işarə;
3) transpozisiya olunmuş hissə.

London struktur dilçilik məktəbinin yaradıcısı C.R.Försə görə, mənanın tədqiqi dilçiliyin əsas vəzifəsi olmalıdır. Bu məktəbin əsas qayəsinə görə, hər bir dil vahidinin mənası onun məzmununun yox, formasının funksiyasıdır[18]. C.R.Förs həm də sözün tam mənasının kontekstdə müəyyən olunduğunu iddia edir[19]. Onun ideyalarını davam etdirən M.A.K.Hallidey dili sistem kimi təqdim edərək funksional məqsədlərə uyğun qrammatik kateqoriyaların seçildiyini göstərir[20]. Sistemli funksional dilçiliyin tərəfdarı M.A.K.Hallidey insan təfəkkürü və dünyagörüşünün dildə necə əks olunduğunu araşdırır. Sələfi C.R.Förs kimi, o da dildə kontekstin roluna önəm verir[21].

---

[17] Балли, Ш. Общая лингвистика и вопросы французского языка / Ш.Балли. – М.: Издательство иностранной литературы, – 1955. – с.179-196.

[18] Rəcəbli, Ə.Ə. London struktur dilçilik məktəbi / Ə.Ə.Rəcəbli. – Bakı: Elm və Təhsil, – 2016. – s. 18.

[19] Firth, J.R. Papers in Linguistics 1934-1951. – London: Oxford University Press, – 1964. – p.7.

[20] Halliday, M.A.K. Categories of the Theory of Grammar // Word, – 1961. Vol. 17(3), – p.245-250.

[21] Halliday, M.A.K. Language, Context and Text: Aspects of Language in a Social-semiotic Perspective / M.A.K.Halliday, R.Hasan. – Oxford: Oxford University Press, – 1989. – 126 p.

London dilçilik məktəbinin nümayəndələrinin kontekst əsaslı məna nəzəriyyəsi, həm də onların dil və cəmiyyətin qarşılıqlı əlaqəsi məsələlərini önəmsiməsi tədqiqatçıların diqqətini dilin semantik qatının öyrənilməsinə yönləndirmiş oldu[22]. Bunu, fikrimizcə, London struktur dilçilik məktəbinin dilçiliyə töhfəsi kimi dəyərləndirmək olar. Onların dilə kontekst çərçivəsində yanaşması onun konsituasiyadan kənarda olmadığını göstərir.

Ənənəvi struktur yanaşmada dil sabit formaların sistemi kimi öyrənilir, funksiya isə arxa planda qalmış olurdu. Lakin London və Praqa dilçilik məktəblərinin tərəfdarları funksionallığı kontekst müstəvisində öyrənir. Dil faktlarına funksional yanaşmada deyil, nisbətən sonralar təşəkkül tapmış koqnitiv yanaşmada da dilin əsas komponenti məna hesab olunur, kateqoriyalar isə kontekst və koqnisiya ilə əlaqəli şəkildə başa düşülür. Təbii dilin çevikliyini, onun koqnisiya və kommunikativ fəaliyyətlə qarşılıqlı əlaqəsini göstərən mexanizm olan transpozisiyanın funksional-koqnitiv paradiqmada araşdırılması olduqca vacibdir. Dilin tədqiqində mənayaratma və koqnisiyaya üstünlük verən bu yanaşma dil faktları və fenomenlərinə struktur yanaşmadan köklü şəkildə fərqlənir.

"Transpozisiya" terminini geniş və dar mənalarda izah etmək olar. Geniş mənada transpozisiya hadisələrinə dil formalarının istifadəsinin bütün halları, xüsusən, zamanın köçürülməsi aiddir. Rus və ingilis dilləri, o cümlədən Azərbaycan dilində keçmiş zaman və ya gələcək zaman mənasında indiki zamanın işlədilməsi mümkündür. İndiki zamanın gələcək zaman yerində işlənməsini G.S.Həsənova identik transpozisiya adlandırır[23]. Məsələn:

"Иду я вчера по улице…" – (Dünən küçədə gəzirəm...);

"She said her husband was coming in a week" – (O dedi ki, əri bir həftəyə gələcək);

"Dünən yanıma gəlir və deyir ki, …"

"Transpozisiya" termininin dar mənasında isə sözün bir nitq hissəsindən digərinə keçməsi və ya başqa nitq hissəsi funksiyasında

[22] Əliyeva, N.N. Professor Ə.Ə.Rəcəbli və Azərbaycan nəzəri dilçiliyi / N.N.Əliyeva. – Bakı: Elm və Təhsil, – 2017. – s.76.

[23] Həsənova, G.S. Feil zamanlarının müqayisəli tipologiyası / G.S.Həsənova. – Bakı: Elm və təhsil, – 2014. – s.112.

işlənməsi nəzərdə tutulur. Nəzəri mənbələrdə transpozisiya hadisəsinin bölgüsü də fərqli şəkildə müzakirə olunur:

1) tam və ya morfoloji transpozisiyada sözün bir nitq hissəsindən başqa birinə keçidi, çevrilməsi başa düşülür. Affikslşmə və konversiyanı morfoloji transpozisiyanın ifadə vasitələrinə aid etmək olar;

2) natamam və ya sintaktik transpozisiyada nitq hissəsi olduğu kimi qalır, ancaq sintaktik funksiya fərqli olur. Məsələn, ismin öz morfoloji xüsusiyyətlərini dəyişmədən cümlənin təyini funksiyasında işlənməsini buna misal göstərmək olar. Məsələn: *"Qızıl üzüyü barmağında gördüm".* Eyni proses cümlənin kommunikativ tiplərində də baş verə bilər: *"Arvad bir gün aynaya baxdı, özünün gözəlliyini görüb heyran qaldı, qəlbində qürur və təkəbbür hissləri baş qaldırdı. Dedi: "Bu gün dünyada mənim tayım hanı? Məndə olan bu hüsn, bu camal kimdə var?"*[24]

Bu sual cümlələri həmsöhbətdən cavab almaq məqsədi ilə deyil, əksinə, qarşı tərəfə informasiyanı ötürmək üçün işlədilmişdir. Bu qəbildən olan cümlələri isə sual cümləsi → nəqli cümlə keçidinə aid etmək olar.

Nəzəri mənbələrdə transpozisiyanı dil hadisəsi kimi təyin etmək üçün müxtəlif termin və anlayışlardan istifadə olunur. Onların arasında ən çox diqqət cəlb edən termin və anlayışlara "keçid", "nitq vahidlərinin transpozisiyası", "nitq hissələri arası keçid", "kateqoriyalı keçid", "morfoloji keçid", "sintaktik keçid", "sinxron və diaxron keçidlilik", "funksional transpozisiya", "eksplisit və implisit transpozisiya", "transilyasiya", "qrammatik omonimlik", "transformasiya", "kontaminasiya", "konversiya" və s. aid edilə bilər[25].

Nitq hissələri səviyyəsində, o cümlədən sintaktik səviyyədə dil vahidləri arasında baş verən keçid hallarını ifadə etmək üçün çoxsaylı termin və anlayışlara rəğmən, dilçilik və tərcümə sahəsində ən uğurlu termin kimi "transpozisiya" terminini qəbul etmək olar.

[24] Babayev, A.M. Azərbaycan dili və nitq mədəniyyəti / A.M.Babayev. – Bakı: Gənclik, – 2015. – s.110.

[25] Məlikli, K.İ. Dilçilikdə keçid hadisəsinin terminoloji variasiyaları və onların nəzəri əsasları // – Gəncə: Gəncə Dövlət Universiteti, "Elmi xəbərlər" humanitar elmlər seriyası, – 2026. № 3, – s.187-193.

I fəslin ***"Dilçilikdə keçid hadisəsi və transpozisiya"*** adlı 2-ci paraqrafında "keçid" və "keçidlilik" hadisələrinə ümumi nəzər salınmış və transpozisiyanın bu keçiddəki rolu araşdırılmışdır.

Dilçilikdə "*keçid*" sözünün çox vaxt müstəqil termin kimi deyil, mürəkkəb qrammatik terminlərin tərkib hissəsi kimi işləndiyinin şahidi oluruq. Məsələn, "nitq hissələrinin keçidi", "bir nitq hissəsindən digər nitq hissəsinə keçid", "nitq hissələri arası keçid" və s. Bundan başqa, dilçilikdə "*keçid"* dedikdə, aşağıdakı hallar başa düşülür:

1) eyni nitq hissəsi daxilində sözlərin leksik və semantik xüsusiyyətlərinin çevrilməsi;

2) xüsusi isimlərin ümumi adlara çevrilməsi;

3) bir sözün cümləyə və ya cümlənin bir sözə, ifadəyə keçidi;

4) tarixi inkişaf prosesində səslərdə baş verən müəyyən dəyişikliklər;

5) nitq üzvlərinin danışıq zamanı mövqelərinin növbələşməsi və bir-birinə keçidi.

Dildə keçid hadisəsini şərtləndirən amillərə isə aşağıdakıları aid etmək olar:

1) dil vahidlərinin çoxaspektliliyi;

2) fikrin ifadəsi üçün dil sistemindəki mövcud konstruksiyaların yetərli olmaması;

3) dil vasitələrinin istifadəsində qənaət prinsipinə üstünlük verilməsi;

4) məna kəsb edən əlaqə və münasibətlərin fərqləndirilməsinin zərurəti[26].

Dilçilikdə keçid anlayışı daha çox affiksiz keçid kimi başa düşülür. Digər tərəfdən, bütün transpozisiya halları "keçid" terminə aid edilir. Fikrimizcə, transpozisiya daha geniş anlayışdır və buraya həm şəkilçili, həm də şəkilçisiz keçidləri aid etmək olar.

I fəslin ***"Sintaktik transpozisiyanın mahiyyəti"*** adlı 3-cü paraqrafında transpozisiya anlayışını təsvir etmək üçün istifadə edilən "birincidərəcəli funksiya", "ikincidərəcəli funksiya", həmçinin

[26] Сергеевна, В. Т. Транспозиция и трансонимизация в русском языке XIX – начала XXI века в речевой деятельности и лингвистических исследованиях: / дис. кандидата филологически наук./ – Донецк, 2018. – с.15.

“effektiv aspektdəki funksiya” və “potensial aspektdəki funksiya”nın mahiyyəti izah olunur.

Transpozisiya hadisəsinin mahiyyətinin başa düşülməsi funksiya anlayışı ilə üzvi şəkildə əlaqədardır. Dilçilər transpozisiya anlayışını təsvirində adətən “birincidərəcəli funksiya” və “ikincidərəcəli funksiya” terminlərindən istifadə edirlər[27]. O.S.Axmanova sintaksisdəki “ikincidərəcəli funksiya”nı müəyyən qrup dil elementləri ilə birləşmədə və ünsiyyət situasiyasında verilmiş sintaktik vahidin qazandığı sintaktik xüsusiyyətlər kimi başa düşür[28].

A.V.Bondarko “ikincidərəcəli funksiya”nı O.S.Axmanovanın şərhinin əksinə olaraq “potensial aspektdəki funksiya” ilə əlaqədə götürülməsini məqsədəuyğun hesab edir. Nəticədə transpozisiyaya uğramış strukturlara münasibətdə 3 əsas funksiyanı fərqləndirmək mümkündür:

1) ilk olaraq bu və ya digər struktur-kommunikativ tipli cümlələrin birincidərəcəli funksiyasını qeyd etmək olar, məsələn: *“Am I that transparent?” she laughed and hid her face with a napkin* – (“Mən bu qədər görünməzəm?” deyə o, güldü və üzünü dəsmalla gizlətdi)[29]. Bu nümunədə cümlənin əsas funksiyası sual funksiyasıdır;

2) digər funksiya isə bu və ya digər struktur-kommunikativ cümlə növünün “potensial aspektdəki funksiyası” olan ikincidərəcəli funksiyadır. Sual cümlələrinin implisit inkar funksiyasını buna misal göstərmək olar. Məsələn, evimizə gələn qonaq getmək istədikdə onun getməməsi üçün *“Hara gedirsiniz?”* sual cümləsini işlədə bilərik. Bu cümlə sintaktik cəhətdən sual cümləsi olsa da, semantik cəhətdən inkar cümləsidir. Cümlədə kontekstdən çıxış edərək anladığımız semantik məna *“Getməyin”*-dir. Burada sual cümləsi – inkar bildirən nəqli cümlə transpozisiyası baş verir və beləliklə, sual cümlələrinin bu funksiyasını ikincidərəcəli funksiya adlandırmaq olar;

---

[27] Richards, J.C. Longman Dictionary of Language Teaching and Applied Linguistics / J.C.Richard, R.Schmidt. – 3rd Edition. – London: Longman, – 2002. – 595 p.; Никитин, М.В. Основы лингвистической теории значения / М.В.Никитин. – М.: Высшая школа, – 1988. – 168 с.

[28] Ахманова, О.С. Словарь лингвистических терминов / О.С.Ахманова. – М.: Высшая школа, – 1966. – с.506.

[29] Hosseini, K. And the Mountains Echoed. – London: Bloomsbury Publishing, – 2013. – p.232.

3) “effektiv aspektdəki funksiya” adlanan sonuncu funksiya isə danışıqda reallaşır. Bu halda dil vahidinin hərfi mənası onun müəyyən kontekstdə məcazi mənada işlədilməsi zamanı ifadə etdiyi praqmatik məna ilə əvəz edilir. Məsələn, *“O qız varlıdırmı?”* sual cümləsi məlumat almaq məqsədi ilə işlənərsə, bu onun sadəcə hərfi mənası olacaqdır, lakin o, müəyyən kontekstdə praqmatik məna qəbul edərək ritorik inkar cümləsi kimi də işlənə bilər. Biz qızın maddi vəziyyətinin yaxşı olmadığını biliriksə, deməli, verilən sual ritorik sual olacaqdır, yəni struktur cəhətdən sorğu intonasiyasına malik sual cümləsi istifadə olunsa da, məna cəhətdən *“O qız varlı deyil”* implisit inkar cümləsini verilən kontekstdən anlaya bilərik.

Bu fəslin 3-cü paraqrafında danışıq aktının lokutiv, illokutiv və perlokutiv tipləri fərqləndirilir, cümlənin kommunikativ tipləri arasında sintaktik keçidlərin olduğu qeyd edilir.

İşin I fəslinin ***“Transpozisiya hadisəsinə funksional-koqnitiv yanaşma”*** adlı 4-cü paraqrafında formalizmlə funksionalizmin fərqi, transpozisiyanın funksional-koqnitiv paradiqmada təhlili təqdim olunur. Bu paraqrafda transpozisiyanın mövcud qatlarına koqnitiv aspektdən ümumi nəzər salınır. Funksional-koqnitiv paradiqma dilin formal sistem deyil, koqnisiyanın reprezentasiya vasitəsi olduğunu göstərir. Bu paradiqma çərçivəsində dil vahidinin mənasının formasından daha vacib olduğunu görürük. Sintaktik konstruksiyalar koqnitiv sxemlər və konseptuallaşdırmalar vasitəsilə araşdırılır[30]. Transpozisiya hadisəsi isə koqnisiyanın dinamikasının, kateqoriyalara bölünməsi və diqqətin yenidən tuşlanmasının əksi kimi şərh edilə bilər.

Koqnitiv dilçilikdə transpozisiya dil sisteminin formal, semantik və konseptual səviyyələrində baş verən çevrilmə və yenidən-təşkiletmə mexanizmlərinin ümumi adıdır. Bu mexanizmlər vasitəsilə dil vahidi ilkin (genetik) qrammatik funksiyasından uzaqlaşaraq yeni funksional mövqeyə keçir və nəticədə həm kateqorial mənsubiyyət, həm də konseptual təyinat dəyişir. Dil işarəsinin ikili təbiətini önə çəkən Ş.Ballinin də qeyd etdiyi kimi, işarənin diskret xətti struktur ilə onun semantik tamlığı arasında dialektik gərginlik mövcuddur və transpozisiya məhz bu gərginliyin hərəkətverici nəticəsi kimi anlaşıla

[30] Ченки, А. Что такое когнитивная метафора?: [Электронный ресурс] – 2019. – 4 p. URL: https://research.vu.nl/en/publications/chto-takoe-kognitivnaja-metafora/

bilər: formal səviyyədə yerdəyişmə və ya funksiya dəyişikliyi baş verərkən, məna səviyyəsində çalarların, fokusun və konseptual vurğunun yenidən paylanması müşahidə olunur[31].

Koqnitiv yanaşmaya görə, transpozisiya prosesində dil daşıyıcısı (adresant) metaforik və metonimik konseptual mexanizmlərdən istifadə edir. Ənənəvi dilçilikdə ancaq bədii təsvir vasitəsi və nitqi zənginləşdirən üslubi fiqur kimi götürülən metafor və metonimiya koqnitiv yanaşmada insanın dünyanı qavrama, təsnif etmə və dərketmə yolu hesab edilir[32]. Metonimik keçidlər hadisənin müəyyən hissəsini bütöv hadisə ilə eyniləşdirir (məsələn, *"to drive"* (sürmək) → *"a drive"* (sürüş)), metaforik keçidlər isə konseptual sahələr arasında assosiativ əlaqə yaradır (*"to climb"* (dırmanmaq) → *"a climb"* (dırmanış), burada hərəkət həm proses, həm də nəticə kimi qavranılır).

A.Çenki konseptual metaforu koqnitiv metafor hesab edir və metaforun koqnitiv proseslər, həmçinin insan fəaliyyətində vacib rol oynadığını yazır[33]. A.Y.Məmmədov metaforların mədəni, siyasi – ideoloji və psixoloji şəraitlə əlaqəli olduğu, dinləyəndə fərqli təəssüratlar yaratdığı fikrini irəli sürür. Bütün sözlərin metaforik mahiyyətinin olduğunu iddia edən müəllifin fikrincə, yaranan təəssüratlar mətni qəbul edənin fon biliyi və mədəni freyminə uyğun şəkildə şərh olunur[34]. G.Lakoff da insanların gündəlik həyatda metaforlardan çox istifadə etdiyini bildirir. Konseptual metaforlardan isə metaforik ifadələr yaranır[35].

Transpozisiyada metonimiya mexanizmi isə obyekt-fəaliyyət, vasitə-fəaliyyət, məkan-fəaliyyət, məqsəd-fəaliyyət, zaman-fəaliyyət

---

[31] Балли, Ш. Общая лингвистика и вопросы французского языка / Ш.Балли. – М.: Издательство иностранной литературы, – 1955. – с.112.

[32] Lakoff, G. Metaphors we live by / G.Lakoff, M.Johnson. – USA: The University of Chicago, – 1980. – p. 22.

[33] Ченки, А. Семантика в когнитивной лингвистике // В кн.: Фундаменталъные направления современной американской лингвистики / А.Ченки. – М.: МГУ, – 1997. – с.346.

[34] Məmmədov, A.Y. Diskurs təhlilinin koqnitiv perspektivləri / A.Y.Məmmədov, M.Y.Məmmədov. – Bakı: 2010. – s. 45.

[35] Lakoff, G. The contemporary theory of metaphor. Metaphor and Thought. – Cambridge: Cambridge University Press, – 1993. – p. 206.

və s. kimi konseptual yaxınlıq əlaqələri üzərində formalaşır. Leksik vahid bu zaman eyni konseptual sahə daxilində olur, ancaq yeni qrammatik funksiya qazanır. Morfoloji transpozisiyanın əsas ifadə vasitələrindən olan konversiya da məhz metonimik mexanizm kimi nəzərdən keçirilə bilər. Belə ki, müxtəlif metonimik xəritələmələr arasından "tam üçün hissə" metonimiyası isim-feil konversiyasını təhlil etmək üçün istifadə oluna bilər. Məsələn, ingilis dilində *"hammer* (çəkic) - *to hammer* (çəkiclə vurmaq)*", "comb* (daraq) - *to comb* (daramaq)*", "fish* (balıq) - *to fish* (balıq tutmaq)*"* və başqa konversiya hallarında eyni konseptual sahə daxilində funksional dəyişiklik olmuş, yəni isim kateqoriyası feil kateqoriyasına keçmişdir. Bununla yanaşı bu keçid metonimik şəkildə fəaliyyət mənasında yenidən qavranılır[36]. Bu baxımdan metafor və metonimiya fərqlənir, çünki metaforik əlaqələr bir qayda olaraq iki müxtəlif domeni əhatə edir.

S.Lin və V.Qao ingilis dilindəki konversiya modellərinin əksər hallarda ideallaşmış fəaliyyət modellərinə (ICM – Idealized Cognitive Models) əsaslandığını qeyd edir, transpozisiyanı isə bu modellərin leksik səviyyədə aktuallaşması kimi izah edirlər[37]. Bu da dilin koqnitiv çevikliyini və konseptual çoxqatlılığını təmin edən əsas mexanizmlərdən biridir.

Transpozisiya dilin yalnız formal sistemində deyil, həm də insanın koqnitiv strukturlarında dərin kökləri olan prosesdir. O, konseptlərin sərhədlərini yenidən müəyyənləşdirir, mənaların genişlənməsi və dilin uyğunluğunu təmin edir. Buna görə də koqnitiv dilçilikdə transpozisiya sırf qrammatik və leksik hadisə deyil, həm də insan təfəkküründün çevikliyini və dilin konseptual universallığını əks etdirən fundamental koqnitiv fenomen kimi izah edilir.

Transpozisiyanın koqnitiv mexanizmlərinə kateqoriyalaşdırma və ya yenidən kateqoriyalaşdırmanı aid etmək olar. Burada söhbət konseptual sxemdə dəyişikliyi əks etdirən vahidin yeni sintaktik

[36] Məlikli, K.İ. Transpozisiya və koqnitiv mexanizmlərin tədqiqi: turizm diskursu materialları əsasında // -Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu "Filologiya məsələləri", - 2026. №6, - s.144.

[37] Lin, S., Gao, W. A Cognitive Linguistic Analysis of Verb-to-Noun Conversion in English // Journal of Literature and Art Studies, – 2022. Vol.12 (3), – p.261-265.

kateqoriya altında semantik yönləndirilməsindən gedir. Transpozisiya anlayışda başqa bir dəyişikliyi, məsələn, hərəkəti deyil, onun nəticəsini fərqləndirməyə imkan verir[38].

Transpozisiyanın məhsuldarlığı və məhdudiyyətləri də koqnitiv-funksional amillərlə ölçülür. Məhsuldarlıq bu və ya digər keçidin (məsələn, feil→isim, isim→feil) dil korpusunda yüksək tezliklə təkrarlanması, müxtəlif diskurs növlərində – elmi, bədii, publisistik və s. işlənməsi, üslubi diapazon və çoxmənalılıq inventarı ilə qiymətləndirilir. Məhdudiyyətlər, bir tərəfdən, tipoloji-struktur, digər tərəfdən, semantik uyğunluq və şərh ilə bağlıdır: çərçivə uyğunsuzluğu və ya yüksək ambiqivitilik yaranarsa, transpozisiya ya kontekstdən asılı olur, ya da normallaşma imkanını itirir[39]. Bu dinamika dilin diaxroniyasında da izlənir: bəzi keçidlər qısamüddətli üslubi dəb kimi yaşayıb sönür, bəziləri isə uzunmüddətli leksikləşmə və qrammatikləşmə kəsb edərək sistemə daxil olur. Ədəbi ənənə burada sürətləndirici rol oynayır.

Dissertasiyanın **"Funksional-koqnitiv paradiqmada morfoloji transpozisiya"** adlı II fəsli üç paraqrafdan ibarətdir. II fəslin ***"Affikslәşmə tam transpozisiyanın ifadə vasitələrindən biri kimi"*** adlı paraqrafında affikslәşmənin söz yaradıcılığında rolu, affikslərin təsnifi, derivasiya və fleksiyanın oxşar və fərqli cəhətləri araşdırılır.

Dilçilikdə sözdüzəldici şəkilçilərə derivasyon şəkilçilər, belə şəkilçilərin köməyi ilə yeni sözün yaranmasına isə derivasyon morfologiya deyilir[40]. C.Yul da dildə yeni söz yaranmasına xidmət edən morfemləri derivasyon morfemlər adlandırır. O, bu morfemlərin sayca çox, amma istifadə dairələrinin məhdud olduğunu yazır. Bütün

---

[38] Соболева, П.А. О понятии парадигмы в формообразовании и словообразовании /П.А.Соболева// Лингвистика и поэтика. – М.: Наука, – 1979. – 139 с.

[39] Руберт, И.Б. Переход от синкретизма к дискретности как тенденция общеязыковых и внутритекстовых эволюционных аналитических процессов / И.Б.Руберт // Теория языка и практика преподавания. – Архангельск: Издательство Архангельского университета, – 2001. – с.152; Соболева, П.А. Лексикализация множественного числа и словообразование / П.А.Соболева. – Москва: Наука, –1979. – с.56-62.

[40] Katalin, B.B. The Structure of English. – Budapest, – 2016. – p.9.

derivasyon şəkilçilərin morfoloji transpozisiyada iştirak etdiyini yazan C.Yulun fikrincə, bu şəkilçilər bir nitq hissəsindən başqasına tam keçidə səbəb olur[41].

Dilçilər müasir ingilis dilinin morfologiyasını fleksiya və söz yaradıcılığı olmaqla iki hissəyə ayırırlar. Söz yaradıcılığı, öz növbəsində, derivasiya, mürəkkəbləşmə və digər sözdüzəltmə üsullarına bölünür. Ənənəvi derivasyon proseslərə affikslşmə ilə bərabər konversiya hadisəsini də aid edən tədqiqatçılar semantik meyara əsaslanaraq konversiya hadisəsini digər derivasyon hadisələr kimi təhlil edirlər. Məsələn, D.Korbinə görə, *"konversiya halları sözün yaranması qaydaları ilə əlaqəli morfoloji əməliyyatların paradiqmalarına inteqrasiya edir, buna görə də affikslşmə kimi konversiya da derivasyon hadisələrə aiddir"*[42]. Morfosemantik cəhətdən konversiyanın affikslşmə ilə paralel mövqedə çıxış etdiyini israr edən S.Manova onun (konversiyanın) derivasyon proseslərə məxsus mənada müntəzəm dəyişiklik yaratdığına görə törəmə proses kimi şərhinin vacibliyini qeyd edir[43].

Dilçilər başqa nitq hissələrinə transpozisiya imkanları baxımından da derivasiya və fleksiyanı fərqləndirir və fleksiyanı bir kateqoriya daxilində müxtəlif söz formaları yaratdığı üçün derivasiyadan ayırırlar[44]. Əlavə edək ki, derivasiya həmişə yeni nitq hissəsinə keçidi təmin etmir. Məsələn: "*gül" (isim) – "güllük" (isim); "red" (sifət) – "redish" (sifət)* və s. İtaliyan dilində də kateqoriya dəyişikliyinə səbəb olmayan törəmə şəkilçilər vardır: "*alberto" (ağac) – "albertino" (balaca ağac), "ragazzo" (oğlan) – "ragazzaccio" (pis oğlan)* və s.[45]

[41]Yule, G. The Study of Language. – 4th Edition. – New York: Cambridge University Press, – 2010. – 320 p.

[42] Corbin, D. Morphologie dérivationnelle et structuration du lexique. – Tübingen: Max Niemeyer, – Vol.I. – 1987. – p.241.

[43] Manova, S. Understanding morphological rules with special emphasis on conversion and subtraction in Bulgarian, Russian and Serbo-Croatian. – Dortrecht: Springer Netherlands, – 2011. – p.59.

[44] Booij, G.E. Inflection and Derivation // – Oxford: Encyclopedia of Language and Linguistics, 2nd edition, – vol.5. – 2006. – p.656.

[45] Booij, G.E. The Grammar of Words. An Introduction to Linguistic Morphology. – New York: Oxford Univ. Press Inc., – 2005. – p.60.

II fəslin ***"Şəkilçisiz keçid kimi konversiya və onun transpozisiya hadisəsində mövqeyi"*** adlı 2-ci paraqrafında transpozisiyanın bir növü olan konversiya hadisəsinin mahiyyəti və dilçilikdə onun şərhi ilə bağlı mövcud ziddiyyətli məqamlar mənbələr üzrə işıqlandırılır.

A.A.Axundov söz yaradıcılığının üsullarından danışarkən bura şəkilçi artırmaqla, söz kökünə söz artırmaqla, sözə yeni məna verməklə və sözün bir nitq hissəsindən başqasına keçməsi ilə sözün yaradılmasını aid edir. O, *"derivasion şəkilçilərin az olduğu və ya heç olmadığı dillərdə derivasiya prosesinin bir növü olan konversiya hadisəsinin aparıcı rola malik"*[46]olduğunu yazır. Müəllif həm də konversiyanın nitq hissələrinin ancaq müxtəlif cümlə üzvü vəzifəsində işlənməsi halı ilə məhdudlaşmadığını və bu halın da konversiyanın bir növü olduğunu göstərir. O, konversiyanın dörd səviyyəsini – sintaktik, morfoloji-sintaktik, semantik-sintaktik, semantik və substantivləşmə, adyektivləşmə, pronominallaşma, verbləşmə, adverbiallaşma və s. kimi növlərini fərqləndirir[47].

Konversiya yeni söz yaranma prosesində ilkin leksemin formasında dəyişiklik olmadan onun (leksemin) müxtəlif söz qrupuna aid edilərək, yeni qrammatik kateqoriyalara malik olmasıdır[48].

D.Kristal yeni söz yaratmağın ən sadə yolunun bir sözü cümlədə fərqli funksiyada işlədərək onu başqa sözlə dəyişmək olduğunu qeyd edir. O, bu yolla feilin ismə, sifətin feilə çevrilməsinin mümkünlüyünü yazır. O, konversiya adlandırılan bu dil hadisəsi zamanı istənilən nitq hissəsinin öz qrammatik kateqoriyalarını dəyişə bildiyini və funksional çevrilməyə uğradığını göstərir. D.Kristal V.Şekspiri dövrünün "konversiya eksperti" adlandırır[49]. Qeyd edək ki, V.Şekspir sözləri məharətlə konversiya etmişdir. Onun bu üsulla 1700-ə yaxın yeni söz forması yaratdığı qeyd edilir. Sözlərin bir çoxu onun "ixtirası" olsa da, digərləri dildə əvvəlcədən mövcud olan sözlərin yeni məna

[46] Axundov, A.A. Ümumi dilçilik / A.A.Axundov. – Bakı: Şərq – Qərb, – 2006. – s.159.
[47] Axundov, A.A. Ümumi dilçilik / A.A.Axundov. – Bakı: Şərq – Qərb, – 2006. – s.159-163.
[48] Katamba, F. Morphology. – London: MacMillan, – 1993. – p.54.
[49] Cristal, D. The Story of English in 100 Words. – London: Profile Books LTD., – 2011. – p.13.

qazanmasından yaranmışdır. Məsələn: *"He elbowed his way through the crowd"* – (O, dirsəkləri ilə özünə yol açа-açа kütlənin arasından keçdi)*; "Darkness blanketed the town"* – (Şəhərin üstünə qaranlıq çökdü) kimi nümunələr bunun sübutudur. Əlavə edək ki, V.Şekspirin bu söz oyunları indi də müasir ingilis dilinə canlılıq bəxş edən mənbələrdən sayılır. Bu sözlərin çoxu gündəlik danışıq dilinə o qədər sıx nüfuz etmişdir ki, dilöyrənənlər onları əvvəldən dildə olan sözlər kimi qəbul edirlər.

Konversiya hadisəsini sözün sintaktik transpozisiyasının denotasiyası hesab edən dilçilər onu "sıfır-derivasiya" da adlandırır, konversiya hadisəsinin sırf qrammatik məsələləri əhatə etdiyini və affikslşmənin tərkib hissəsi olduğunu, lakin onun sözdüzəltmə ilə əlaqəsinin olmadığını göstərirlər. Dilçilikdə "konversiya" və "sıfır-derivasiya" terminləri eyni dərəcədə istifadə olunsa da, B.Ketnaroşka hər iki terminin müxtəlif nəzəri əsaslarının olduğunu yazır[50]. O, konversiyanı morfoloji və ya sintaktik hadisə, sıfır-derivasiyanı söz yaradıcılığı prosesi hesab edir. R.Liber *"implisit transpozisiya kimi konversiyanın morfoloji və ya qrammatik hadisələrlə əlaqəsinin olmadığını, özünü praqmatik çalarları olan sözdüzəltmənin nəticəsi kimi göstərdiyini"* yazır və konversiyanı *"yenidən sıralama (relisting) prosesi"* adlandırır[51]. Başqa sözlə, dildə daha əvvəl mövcud olan söz(lər) konversiya nəticəsində müxtəlif leksik kateqoriyanın bir hissəsi kimi yenidən dilin lüğət fonduna daxil olur. Bu mənada konversiya sıfır-derivasiyadan fərqlənir, çünki heç bir sonluğun əlavəsinə ehtiyac qalmır. Sonralar konversiya və sıfır-derivasiya terminləri ilə bərabər "funksional yerdəyişmə", "funksional hərəkət", "semantik keçid", "sıfır şəkilçi" və s. terminoloji variantlardan istifadə olunsa da, fikrimizcə, bunlar arasında "konversiya" termini daha dolğun məzmuna malikdir[52].

Konversiya yolu ilə yaranan sözlərin omonimliliyi məsələsi hələ də mübahisəlidir. Bəzi dilçilər konversiya nəticəsində yaranan

[50] Cetnarowska, B. The Syntax, Semantics and Derivation of Base Nominalization in English. – Katowice: Uniwersytet Slaski, – 1993. – p.14-19.

[51] Lieber, R. Morphology and Lexical Semantics. – Cambridge: University of Cambridge Press, – 2004. – 196 p.

[52] Neef, M. On some Alleged Constraints on Conversion. Approaches to Conversion/Zero-Derivation / ed. L.Bauer and S.Valera. – Münster: Waxman, – 2005. – p.103-130.

sözləri omonimlərə aid etsələr də, digərləri konversiyada iştirak edən sözləri leksik-qrammatik omonim kimi qəbul etmirlər[53]. A.İ.Smirnitski qədim ingilis dili üçün səciyyəvi olan konversiya hallarının omonimlik yaratmadığını, ancaq müasir ingilis dilində bu dil hadisəsinin omonimliklə bağlı olduğunu yazır. Müəllif omonimliyin vacib şərtini belə izah edir: *"Konversiya cütlüklərində tək isimlərin adlıq halı ilə feilin məsdər formasında olan sözlər eyni səslənməyə malikdir"*[54]. Müəllifə görə, *"omonimlik konversiyanın köməyi ilə eyni cür səslənən bəzi sözləri yaxınlaşdırır"*[55].

Dilçilikdə konversiyanın istiqamət problemi ilə bağlı bəzi dilçilər ikiistiqamətli təhlili əsas götürsə də, əksər dilçilər birtərəfli istiqamət təhlilinə üstünlük verirlər. L.Bauer və S.Valera konversiyada tərəflər arasındakı istiqamət məsələsinə sinxron və diaxron aspektdən yanaşmağı təklif edirlər[56]. R.Liberin irəli sürdüyü müddəa isə konversiya hadisəsinin istiqamətli bir proses olmamasıdır. Məsələn, əksər dilçilər "*to bottle"* feilinin "*a bottle"* ismindən törədiyini qeyd etsə də, R.Liber bunun əksinə olaraq, özünün yenidən sıralama nəzəriyyəsinə əsasən *"bottle"* sözünün yeni formasının feilin yeni kateqoriyasına aid olduğunu, bununla da dilin lüğət fondunda yenidən istifadə olunduğunu yazır. Bununla da o, konversiya cütlüyündə iştirak edən sözlər arasında istiqamətin olmadığını, onların yalnız leksik cəhətdən əlaqələndiyini iddia edir[57].

Həm konversiya, həm də affikslşmə zamanı dil vahidlərinin eyni mərhələlərdən keçdiyini deyə bilərik. İlkin dil vahidi formal vasitəsiz, ya da formal dəyişikliklə yeni funksional mahiyyət qazanır, koqnitiv yenidənşərh baş verir və nəticədə transpozisiya olunmuş dil vahidi yaranır.

---

[53] Orucova, S.A. Dildə konversiya hadisəsi / S.A.Orucova. – Bakı: Elm və təhsil, – 2018. – s.14-15.

[54] Смирницкий, А.И. По поводу конверсии в английском языке // Русский язык в школе, – 1954. № 3, – с.16.

[55] Yenə orada, s.20.

[56] Bauer, L. Approaches to Conversion/Zero-Derivation / L.Bauer, S.Valera. – Münster: Waxman, – 2005. – p. 10-12.

[57] Lieber, R. Introducing Morphology. – New York: Cambridge University Press, – 2009. – p.49-51.

İşin II fəslinin ***"Substantivləşmə konversiyanın əsas tiplərindən biri kimi"*** adlı 3-cü paraqrafında tam, qismən və təsadüfi substantivləşmədən, eyni zamanda həqiqi substantivləşmə, kvazisubstantivləşmə və metasubstantivləşmədən bəhs olunur. *"Substantivləşmə – maddi varlığa, materiyaya xas əlamətin, keyfiyyətin dildə maddi varlığı, materiyanı əvəz etməsi hadisəsidir"*[58]. İsim olmayan nitq hissələrinin transpozisiya nəticəsində ismə çevrilməsi hadisəsi olan substantivləşmə həm sözdüzəltmə üsulu, həm də isim tərkibinin zənginləşməsi prosesi kimi tədqiq edilir. Sözdüzəltmə prosesində substantivləşmə özünü qeyri-morfoloji hadisə kimi göstərir. İsmin tərkibinin zənginləşməsinə xidmət edən substantivləşmə isə sırf morfoloji hadisə kimi araşdırılır. Substantivləşdirmə funksiyaları isə aşağıdakı kimi qruplaşdırıla bilər:

1) sözdə qənaət prinsipini əsas tutaraq ismin sinonimini əldə etmək üçün dil vahidinin ismin leksik-qrammatik kateqoriyasına keçməsi. Məsələn: "*...like the young girl of before...*" (...əvvəlki vaxtların gənc qızı kimi...);

2) müəyyən kontekstdə işlədilən dil vahidinin təkrarlanmasının qarşısını almaq üçün onun isimləşməsi. Məsələn: "*She coughed, one burst" – (O öskürdü, biri özündən çıxdı)*[59]*;*

3) danışıq aktında başqasının fikrini qısaltmaq üçün dil vahidinin substantivləşməsi. Məsələn: "*There are no ifs, no ands, or buts about it: the monthly fees are increasing day by day" – (Bununla bağlı əgərlər, vələr, və ya ammalar yoxdur: günü-gündən aylıq ödənişlər qalxır);*

4) dil vahidinin özünün metalinqvistik varlıq kimi təsviri. Məsələn: *'Found it,' she said. 'Of course, you know what 'it' means"* – ("Tapdım bunu", – o dedi. Əlbəttə, "bunun" nə demək olduğunu bilirsiniz).

Substantivləşmə özü keçid prosesidir. Bəzi dilçilər bu dil hadisəsini başqa nitq hissəsinə aid sözün ismə tam keçidi kimi izah etsə də, fikrimizcə, substantivləşmə müvəqqəti səciyyə daşıyır, yəni o, keçid prosesində aralıq mövqeyə malikdir. Keçid nəticəsində

[58] Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya / Q.Ş.Kazımov. – Bakı: Elm və Təhsil, – 2010. – s.112.
[59] Miller, S. The World Below. – London: Bloomsbury Publishing, – 2002. – p.110.

yaranan söz tam isimləşmir, lakin sözdə onun öz əvvəlki xüsusiyyətləri ilə paralel ismə xas müəyyən əlamətlər də yaranır. Transpozisiyanın tərkib hissəsi olan substantivləşmədə bir dil vahidi başqasına qətiyyən çevrilmir. Buradakı dəyişiklik zahiri səciyyə daşıyır, yəni söz öz daxili məzmununu saxlamaqla funksional baxımdan müəyyən dəyişikliklərə məruz qalır. Deməli, keçidin aralıq pilləsi olan substantivləşmə ismə tam keçid deyil.

Tədqiqat işinin **"Funksional-koqnitiv paradiqmada sintaktik transpozisiya hadisələri"** adlı III fəsli iki paraqrafdan ibarətdir. Bu fəslin ***"Kommunikativ cümlə tipləri kontekstində sintaktik transpozisiya"*** adlı birinci paraqrafında cümlənin məqsəd və intonasiyasına görə təsnifi və bu təsniflərdəki fərqli yanaşmalar tədqiq olunur. Bu paraqrafda cümlə tipləri arasında sintaktik keçidlərin olduğu konkret nümunələr əsasında göstərilir. Sintaktik transpozisiya dil vahidinin semantik xüsusiyyətlərini, eyni zamanda qrammatikasını qoruyub saxlayaraq və ya dəyişdirərək əsas sintaktik funksiyasından digərinə yerdəyişməsidir.

Danışıq aktında özünəməxsus funksiyaları olan əsas cümlə qruplarına nəqli, sual, əmr və nida cümlələri aid edilir. Sadə cümlənin məqsəd və intonasiyasına görə qeyd olunan tipləri arasında nəqli cümlə aparıcı mövqeyə malik olması ilə digərlərindən seçilir. Bunun da əsas səbəbi danışıq aktında heç bir qrammatik göstərici olmadan sadəcə intonasiya vasitəsilə nəqli cümlədən digər cümlə tiplərinə keçidin baş verə bilməsidir. Başqa sözlə desək, baş vermiş sintaktik transpozisiya üçün nəqli cümlə çıxış nöqtəsi rolunu oynayır. Bu məqamı nəzərə alan Ə.M. Cavadov yazır ki, danışıq fəaliyyəti anında dinamikləşən və aktivləşən nəqli cümlə cümlənin məqsəd və intonasiyasına görə digər tiplərini törədir[60]. Cümlənin kommunikativ növlərinin təhlilində dinləyicinin (adresatın) reaksiyasını əsas götürən A.A.Rivlina söyləmləri mənasına görə yox, həmin o söyləmlərin qarşı tərəfdə doğurduğu cavaba görə təsnif etməyi təklif edir[61].

[60] Cavadov, Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası / Ə.M.Cavadov. – Bakı: Elm, – 1977. – s.45.

[61] Ривлина, А.А. Теоретическая грамматика английского языка / А.А.Ривлина. – Благовещенск : Изд-во БГПУ, – 2009. – с.168.

Bu paraqrafda həmçinin dilçilikdə nida cümlələri ilə bağlı dilçilər arasında vahid fikrin olmadığı qeyd edilir.

Tədqiqatın III fəslinin ***"Cümlənin kommunikativ tipləri arasındakı keçidlər və onların funksional-koqnitiv xüsusiyyətləri"*** adlı ikinci paraqrafı 5 bənddən ibarətdir. Bu paraqrafda sintaktik transpozisiyanın doqquz növündən bəhs olunur. Bunlara nəqli cümlə→nida cümləsi keçidi (məsələn, *"Amma kiçik oğlum əlimə keçsə, onun atasına od vuracağam!"*)[62], nəqli cümlə→sual cümləsi keçidi (məsələn, *"He has left?" she looked at him in disbelief* – ("O gedib?" o, şübhə ilə ona baxdı))[63], əmr cümlələrinə keçidi (məsələn, *"Ölüm, yalnız ölüm fitvası!?")*[64], sual cümləsi→nida cümləsi keçidi (məsələn, *"Ay aman, bu nə oldu belə?!"*), sual cümləsi→nəqli cümlə keçidi (məsələn, *"Onun anasına cavab qaytarmağı düzdürmü?"*), təsdiq cümləsinə keçidi (məsələn, *"How can you say that? Wouldn't she weep for you? Wouldn't her child?"*[65] – ("Bunu necə deyə bilərsən? O sənin üçün ağlamazdı? Yaxud onun uşağı?"), inkar cümləsinə keçidi (məsələn, *"Bəlkə sizə borcum var?"*), emosional cümlələrə keçidi (məsələn, *"You are a little depressed, too," said madame, whose quick eyes had never been so intent on the accounts, but they had had a ray or two for him. "Oh, the men, the men!"*[66] – ("Sən də bir az depressiyaya düşmüsən" – iti baxışlarıyla heç vaxt hesablara bu qədər diqqətlə baxmayan qadın, onlara bir-iki nəzər salıb dedi. "Ah, bu kişilər, kişilər!")), son olaraq isə söz-cümlə keçidini (məsələn, *Almaz: Hər iş öz qaydası ilə gedir. Hacı Əhməd: Şükür Allaha, şükür Allaha!*)[67] aid etmək olar.

Sintaktik transpozisiya zamanı da dil vahidi müəyyən mərhələlərdən keçir və beləliklə, başlanğıc dil vahidi öz əsas funksiyasını kommunikativ məqsəd və kontekstə görə dəyişir.

---

[62] Haqverdiyev, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə. Haqverdiyev. – Bakı: Lider, – c.2. – 2005. – s.89.

[63] Miller, S. The World Below. – London: Bloomsbury Publishing, – 2002. – p.156.

[64] Abdulla, K. Sehrbazlar dərəsi / K.Abdulla. – Bakı: Qanun, – 2018. – s.107.

[65] Dickens, C. A tale of two cities: [in 34 vol.]. – United Kingdom: Chapman & Hall, – Vol. 21. – 1868. – p.361.

[66] Yenə orada, s. 204.

[67] Cabbarlı, C. Əsərləri: [4 cilddə] / C.Cabbarlı. – Bakı: Şərq – Qərb, – c.3. – 2005. – s.88.

Sonrakı mərhələdə dil vahidi koqnitiv yenidən şərh edilir və nəticədə yeni semantik, funksional statuslu dil vahidi yaranır. Bu prosesdə transpozisiya hadisəsi özünü xarici nəticə kimi göstərir.

Nəzəri mənbələr və dil materialının təhlilindən aşağıdakı elmi ***nəticələr*** əldə edilmişdir:

1. Funksional-koqnitiv paradiqmada transpozisiya hadisəsi müasir dilçiliyin nəzəri inkişaf mərhələsində dilin sistem-funksional bütövlüyünü və koqnitiv yönümlü dinamikliyini əks etdirən mühüm tədqiqat obyektlərindən biridir. Dil yalnız formal kateqoriyalar sistemi deyil, o, eyni zamanda, insan şüurunun, təfəkkür aktları və kommunikativ niyyətlərin məhsuludur. Transpozisiya hadisəsi dilin həm məna, həm də forma planında baş verən çeviklik və uyğunlaşma proseslərinin əsas markeridir.

2. Dilin struktur vahidləri sabit və konstant sistem kimi deyil, kontekst, məqsəd və idrak şəraitindən asılı olaraq çevik funksional mahiyyət qazana bilir. Funksional-koqnitiv paradiqmanın tətbiqi dilin sırf qrammatik sistemi deyil, həm də onun konseptual-kommunikativ səviyyələrinin qarşılıqlı əlaqəsini üzə çıxarır. Transpozisiya dil sistemində formal sabitliklə funksional variativliyin dialektik vəhdətini təmin edən universal fenomendir.

3. Transpozisiya dil vahidlərinin bir kateqoriyadan digərinə funksional-semantik keçididir. Bu keçid vahidlərin formal strukturunu tam itirmədən, onların yeni funksional-semantik mahiyyət kəsb etməsi ilə müşayiət olunur. Funksional-koqnitiv baxımdan transpozisiya həm dilin struktur çevikliyini, həm də insan şüurundakı konseptual assosiasiyaların dil vasitəsilə ifadəsini göstərir.

4. Transpozisiya iki əsas formada: morfoloji (tam) və sintaktik (natamam) formalarda mövcuddur. Morfoloji transpozisiya affikslәşmə və konversiya yolu ilə baş verir və bu zaman kateqoriya dəyişikliyi formal işarələnmə ilə ifadə olunur. Sintaktik transpozisiyada isə forma sabit qalır, lakin funksional məqsəd dəyişir. Hər iki mexanizm dilin semantik sistemində paralel fəaliyyət göstərərək onun çevikliyini təmin edir.

5. Affikslәşmə, konversiya, substantivləşmə, adektivləşmə və verbləşmə kimi formal mexanizmlər morfoloji transpozisiyanın əsas markerləridir. Konversiyanın formal markerlərsiz baş verməsi koqnitiv

kontekstin əhəmiyyətini artırır. Bu mexanizmlər dilin məhsuldarlığı və yeni nominativ vahidlər yaratma imkanlarını göstərir.

6. Morfoloji və sintaktik transpozisiya hallarının müəyyən edilməsində dördlü meyara – morfoloji nişanlama, sintaktik paylanma, leksik-semantik invariant, praqmatik-kommunikativ niyyətə əsaslanan təsnif modeli hazırlanmışdır. Bu model dilin funksional-semantik sistemindəki çeviklik mexanizmini təyin edən nəzəri bazadır. Sintaktik səviyyədə transpozisiya cümlə tipləri və kommunikativ funksiyalar arasında keçidlərlə müşahidə olunur. Sual cümləsinin nəqli məzmun daşıması və ya nəqli cümlənin əmr-funksional kontekstdə istifadəsi transpozisiyanın praqmatik təzahür formalarıdır.

7. Transpozisiya, konversiya və transformasiya fenomenlərinin sərhədləri və bir-birinə qarşılıqlı münasibətləri müəyyən edilmişdir: hər bir konversiya halı transpozisiyadır, lakin hər bir transpozisiya konversiya və ya transformasiya deyildir.

8. Koqnitiv aspektdən transpozisiya konseptual məna transformasiyalarını, kateqoriyalararası əlaqələrin yenidən təşkili və mənanın reoriyentasiyasını əhatə edir. Dilin formal səviyyələrində öz əksini tapan insan şüurundakı konseptual modellər transpozisiyanın koqnitiv əsaslarını formalaşdırır.

9. Transpozisiya universal və milli xüsusiyyətləri özündə ehtiva edir. Universal səviyyədə transpozisiya məna çevikliyi və kontekstual uyğunlaşma, milli səviyyədə isə bu hadisə morfoloji vasitələrin fərqliliyi ilə səciyyələnir.

10. Transpozisiya fenomeni dilin struktur sistemində baş verən formal çevrilmələrin sərhədlərini aşaraq insanın koqnitiv və kommunikativ fəaliyyətinin dilin ayrı-ayrı səviyyəsinin vahidlərində təzahürünü formalaşdırır. Transpozisiya hadisəsi dilin semantik-funksional elastikliyini təmin edən universal mexanizm kimi dilin yalnız qrammatik sistemini deyil, həm də onun konseptual məzmununun dinamikliyini təmin edir.

11. Transpozisiya dilin semantik potensialının aktuallaşmasına şərait yaradır, dil vahidlərinə yeni məna çalarları qazandırmaqla onların kommunikativ dəyərini artırır, təbii dilin proqressiyasının qanunauyğunluqları, eləcə də onun adaptiv və variativləşmə imkanlarının genişlənməsinə zəmin yaradır.

12. Transpozisiya fenomeninin funksional-koqnitiv izahı dilin statik struktur modelindən dinamik, koqnitiv yönümlü modelə keçid üçün konseptual baza yaradır. Bu yanaşma dil formalarını yalnız morfoloji-sintaktik aspektdə deyil, həm də insan təfəkküründün məntiqi-psixoloji mexanizmləri ilə sıx vəhdətdə şərh etməyə imkan verir və beləliklə, dilçiliyin inkişafında sistem-funksional münasibətlər və koqnitiv mexanizmlərinin sintezi istiqamətində yeni metodoloji çərçivəni formalaşdırır.

13. Tədqiqat işində irəli sürülmüş nəzəri-metodoloji çərçivə, işlənmiş təsnif modeli və empirik faktların təhlili dilin funksional-semantik bütövlüyü və çevik struktur münasibətlərinin izahına, eləcə də dilin konseptual sisteminin öyrənilməsinə yeni elmi baxış formalaşdırır. Nəticələr ümumdil və milli baxımından əhəmiyyətlidir, çünki burada dil hadisələri sırf qrammatik və struktur variativliklə deyil, insan koqnitiv-kommunikativ niyyətin refleksiyası baxımından qiymətləndirilir. Transpozisiya hadisəsinin funksional-koqnitiv paradiqma baxımından sistemli, çoxsəviyyəli və elmi əsaslandırılmış konseptual tədqiqi gələcək tədqiqatlar üçün metodoloji platforma kimi təbii dilin funksional sisteminin koqnitiv yönümlü şərhində elmi yeniliyə və praktik əhəmiyyətə malikdir.

Dissertasiya işinin məzmunu aşağıdakı tezislər və məqalələrdə öz əksini tapmışdır:

1. Derivasiya morfoloji transpozisiyanın ifadə vasitəsi kimi // “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” I Beynəlxalq elmi konfrans, – Mingəçevir: – 10-11 dekabr, – 2021, – s.389-391.
2. Müasir dilçilikdə keçid hadisəsi və transpozisiya // – Bakı: BQU, “Elmi əsərlər”, – 2023. № 2 (54), – s.182-187.
3. Müasir dilçilikdə substantivləşmənin növləri // – Bakı: BDU, Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2023. № 2(122), – s.43-47.
4. Müasir dilçilərin konversiya anlayışına münasibəti haqqında // Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycanda ali təhsil” Respublika

elmi konfransı, – Naxçıvan Muxtar Respublikası: – 12 may, – 2023, – s.112-114.

5. Dilçilikdə “Konversiya” terminina baxışlara dair // Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Doktorant və Gənc tədqiqatçıların XXVI Respublika Elmi Konfransı, – Bakı: – 17-18 noyabr, – 2023, – s.65-69.
6. The Phenomenon of Conversion in Linguistics as a Means of Expressing Morphological Transposition // – Таврійського національного університету імені В.І.Вернадського, Вчені Записки, Серія: Філологія. Журналістика, – 2024. № 4, – p.77-84.
7. Разные подходы к процессу транспозиции в лингвистике // Материалы IV международной научно-практической конференции па тему «Лингвокультурные аспекты глобализационных процессов: Языковой капитал в структуре человеческого и культурного капитала», – Москва: – 29 октября, – 2024, – с.126-133.
8. Müxtəlifsistemli dillərdə affiksasiya yolu ilə baş verən morfoloji transpozisiya halları // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2025. №1, – s.192-202.
9. Dil strukturunda sintaktik transpozisiya və onun mahiyyəti // – Bakı: BDU, Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2025. № 2 (128), – s.81-84.
10. Sözün cümlə müstəvisində transpozisiyası: funksional-koqnitiv yanaşma // – Bakı: Terminologiya məsələləri, – 2025. № 2, – s.114-119.
11. Transposition: functional-cognitive and digital approach // “The Use of Modern Digital Technologies in Linguistics and Foreign Language Teaching” International Scientific and Practical Conference, – Tashkent: – 22-23 April, – 2026, – p.313-317.
12. Dilçilikdə keçid hadisəsinin terminoloji variasiyaları və onların nəzəri əsasları // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi xəbərlər. Humanitar elmlər seriyası, – 2026. № 3, – s.187-193.
13. Transpozisiya və koqnitiv mexanizmlərin tədqiqi: turizm diskursu materialları əsasında // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2026. №6, – s.143-151.

Dissertasiyanın müdafiəsi 20 noyabr 2026-cı il tarixində saat 11:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.10.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 44139 işarə

Tiraj: 100